GÜNÜN SİYASİ NƏBZİ







# Xankəndidə Zəfər muzeyi və parkı yaradılır

**Xankəndi Qarqar çayının sahilində, Qarabağ dağ silsiləsinin şərq ətəyində yerləşir. Təbiət burada ecazkar və ruh oxşayan bir tablo yaradıb. Yaşıl dərələrin, meşələrin sanki sığal çəkdiyi, ağuşuna aldığı Xankəndi dağların ətəyindən zirvəsinə doğru addım atır, qədim yurd yerimiz indi ikinci ömrünü yaşayır. Xankəndidə erməni separatizminin izləri silinir, şəhər yenidən milli ruha və ovqata köklənir. Otuz ildən artıq dünyanı öz uydurma və yalanlarına inandırmağa çalışan erməni separatçılarının Xankəndidəki "mərkəzi qərargahı", separatizm yuvası olmuş "hökumət binası"nın üzərində indi Azərbaycan bayrağı qürurla dalğalanır. Müqəddəs şəhidlərimizin qanı ilə azad edilmiş torpaqlara səfər edənləri ilk qarşılayan üçrəngli bayrağımız olur. Əlbəttə, üçrəngli, ay-ulduzlu bayraq təkcə Ermənistana yox, həm də Qarabağı münaqişə ocağına, müharibə meydanına, nüfuz savaşına çevirən erməni havadarlarına verilən cavabın təntənəsidir. Millət, dövlət və ordu olaraq savaşaraq haqqımızı, şərəfimizi ucaltdıq, iki əsrlik erməni taununa son qoyuldu, ədaləti, haqqı "Dəmir yumruqla" qazandıq!**

Xankəndi gündən-günə dəyişir, gözəlləşir, burada qədimliklə müasirlik qovuşur, istehsal sahələri işə salınır, təhsil müəssisələri fəaliyyətə başlayıb. Bu qədim şəhərə şərəfli bir həyat qayıdıb, insanların çöhrəsindəki qürur, inam və arzular diqqəti cəlb edir. Şəhərdə tarixi-mədəni binalar təmir edilərək, öz ilkin görkəminə qaytarılır. Xankəndidə möhtəşəm Zəfər muzeyi və parkı yaradılır. Bu barədə **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov** bildirib. Zəfər muzeyi bu ilin iyul ayına hazır olacaq. Muzeyin arxasında banerlə əhatəyə alınmış 12,6 hektarlıq böyük ərazi Zəfər parkı olacaq. Burada Azərbaycanın ən böyük Zəfər Tağı abidəsi ucaldılacaq. Xankəndi şəhərində Zəfər parkının salınması məqsədilə ayrılmış ərazi şərti olaraq iki hissəyə bölünüb və 8,3 hektar sahəsi olan birinci hissədə söküntü işləri artıq yekunlaşıb. Ümumilikdə, ərazidən 279 min 416 kubmetr həcmində söküntü tullantıları daşınıb. İkinci hissə isə 4,6 hektar ərazini əhatə edir. Burada da söküntü işləri aparılacaq. Əraziyə ağacların qorunması məqsədilə aidiyyəti təşkilatlarla birgə baxış keçirilib və müxtəlif növ 262 ağac müəyyən edilib. Bundan başqa, parkın ərazisində 21 növ üzrə 300-dən çox ağacın əkilməsi nəzərdə tutulur. Bu ilin fevralında Xankəndidəki Zəfər parkının təməli Prezident İlham Əliyevin Qarabağ bölgəsinə səfəri zamanı qoyulub.

Ölkəmizdə yaradılan Zəfər parkları xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın, qazandığı möhtəşəm tarixi Qələbənin, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının rəmzidir. Xankəndi şəhərində yaradılacaq Zəfər parkı tarixi Qələbəmizin yaddaşlarda yaşadılması, qəhrəmanlıq nümunələrinin əbədiləşdirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün mühüm əhəmiyyətə malikdir. Zəfər parkı Azərbaycanın gücünü, xalqımızın əzmini və azərbaycanlıların Vətən torpağına olan bağlılığını göstərən bir məkandır.

Xankəndi son otuz il ərzində daşnak haylaların, separatçıların, terrorçuların, dünyanın müxtəlif yerlərindən gətirilmiş cinayətkarların, çörəyi dizinin üstündə olan, xəyanətkar ermənilərin bayquş yuvasına çevrilmişdi. O şər yuvası dağıdıldı, havası təmizləndi, haramların, nakəslərin, soysuzların bu torpaqlardan kökü kəsildi. Müzəffər Prezidentimiz tarixin və zamanın haqsızlığını cəsarətlə, fədakarlıqla aradan qaldırdı. İndi hər iki bölgədə misli görünməyən quruculuq və bərpa aparılır. Azadlığına qovuşan Xankəndinin görkəmi bura gələn turistləri heyran edir, şəhər öz sahiblərinə qucaq açır. Ötən il oktyabrın 15-də Qalib Ali Baş Komandan Xankəndi şəhərində, Ağdərədə, Əsgəranda, Xocalıda, Xocavənddə Zəfər bayrağımızı ucaltdı və Xankəndinin mərkəzində, Azərbaycanın pulu ilə tikilmiş binanın qarşısından tarixi çıxış etdi. Tarix yazan Liderimizin çıxışı müasir Azərbaycanın şərəfli tarixi kimi dərsliklərə salınmalıdır, indiki və gələcək nəsillər onu öyrənməlidirlər. Prezidentimiz bütün dünyaya,ermənipərəst qüvvələrə, bəzi dövlətlərə mənəviyyat, həqiqət, ədalət dərsi keçdi və bildirdi ki, ulu öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır.

2024-cü ilin yekunları uğurlu olub, qədim şəhərdə genişmiqyaslı bərpa və quruculuq həyata keçirilib. Ötən dövr ərzində dövlət başçısının müəyyən etdiyi tapşırıqların icrası çərçivəsində iqtisadiyyatın bərpası, məskunlaşma, məşğulluğun təmin edilməsi, zəruri infrastrukturun yaradılması və bərpa-quruculuq sahəsində əhəmiyyətli işlər görülüb. İlk növbədə, ərazidə inzibati idarəetmənin təşkili, əhalinin müxtəlif sahələr üzrə ehtiyaclarının ödənilməsi və xidmətlərdən faydalanması məqsədilə bir çox dövlət orqanları və təşkilatlarının regional fəaliyyəti təmin edilib. İqtisadi fəaliyyətin dəstəklənməsi, o cümlədən özəl sahibkarlıq subyektləri tərəfindən investisiyaların cəlb edilməsi sahəsində mühüm nailiyyətlər əldə edilib. Belə ki, hazırda ərazidə istehsal, xidmət, ictimai iaşə və kənd təsərrüfatı sahələri üzrə yüzlərlə sahibkar fəaliyyət göstərir. İndi Xankəndidə yaddaşın intibahı baş verir, hərbi-diplomatik zəfərin möhtəşəmliyi daha yaxından hiss olunur.

**Salman ALIOĞLU,**
**"Respublika".**